# Heydər Əliyev və hüquqi islahatlar

**“Heydər Əliyev İli – 2023” çərçivəsində Ədliyyə Nazirliyi və Bakı Dövlət Universitetinin hüquq fakültəsi ulu öndərin müstəqillik, dövlətçilik, qanunçuluq, məhkəmə və hüquq-mühafizə sahələrini əhatə edən genişmiqyaslı fəaliyyətinin öyrənilməsi və təbliği məqsədilə silsilə tədbirlər planı hazırlayıb.**






BDU-nun hüquq fakültəsində keçirilən ilk birgə tədbiri açan fakültənin dekanı Zaur Əliyev Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin xilaskarlıq və quruculuq missiyası, o cümlədən ulu öndərin rəhbərliyi ilə həyata keçirilən hüquqi islahatlar barədə məlumat verdi. Z. Əliyev qeyd etdi ki, ümummilli lider Heydər Əliyevin yolunu davam etdirən, vəsiyyətlərini gerçəkləşdirən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad etmişdir. Bununla Azərbaycanı bütöv görmək istəyən ulu öndərin ən böyük arzusu həyata keçirilmişdir.

Ədliyyə Nazirliyinin İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitova ümummilli liderin zəngin irsinin, dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətlərinin yeni nəslə aşılanması məqsədilə nazirlik tərəfindən “Heydər Əliyev və Azərbaycan ədliyyəsi” elektron məlumat platformasının yaradıldığını diqqətə çatdırdı.

Çıxışlarda ulu öndərin irsinin öyrənilməsi və təbliğində respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və rəhbəri olduğu Heydər Əliyev Fondunun müstəsna xidmətləri diqqətə çatdırıldı.

Sonda “Heydər Əliyev və Azərbaycan ədliyyəsi” elektron platformasının təqdimatı keçirildi.

***Züleyxa ƏLİYEVA,***
***BDU-nun hüquq fakültəsinin tələbəsi***

Xalq qəzeti .- 2023.- 19 fevral.- S.7.